# Qələbə paradına şair salamı

## *Tarixi sətir-sətir yaradanlara salam olsun!*

**Məlum həqiqətdir ki, 2020-ci ildə başlanan 2-ci Qarabağ savaşı ordumuzun möhtəşəm Qələbəsi ilə başa çatdı və 10 noyabr 2020-ci ildə Bakının mərkəzində Türkiyə Prezidenti Rəcəb Təyyub Ərdoğanın da iştirakı ilə Qələbə paradı təşkil olundu. Azərbaycan ordusunun zabit və əsgər heyəti həmin Qələbə nümayişində Ali Baş Komandanın qarşısından mətin addımlarla hərbi salam verməklə ötüb keçirdilər. Bu qürurverici mənzərəni izləyən hər kəs bu əzəmətli səhnəyə baxıb, sevinc hissini büruzə verirdi. Şairə Mahirə Nağıqızı da məhz həmin gün qəlbindən keçənləri bildirmək üçün qələmə söz verdi, o da bu parada Qələbə salamı verdi:**

**Ey tarixi sətir-sətir yaradanlar,**
**Nə şanlısız, şanınıza salam olsun!**
**Qalacaqdır bu tarixdə var olanlar,**
**Silinməz ad-sanınıza salam olsun!**

**Rəzil oldu bizi qüvvə saymayanlar,**
**Qanda batdı qan içməkdən doymayanlar.**
**Bu milləti yıxılmağa qoymayanlar,**
**Dünyada hər anınıza salam olsun!**

**Adı qalar zaman-zaman Sər doğanın,**
**İzi qalmaz hər olanın, hər doğanın.**
**İlham, sənin, Rəcəb Təyyub Ərdoğanın**
**Həmişə var canınıza salam olsun.**

**Şəhidlərim haqqınız var çiynimizdə,**
**Kəfən geydik , qalacaqdır əynimizdə.**
**Çıxmayacaq, yaşayacaq eynimizdə,**
**Tökülən al qanınıza salam olsun.**

**Ələm idi, qüssə idi hər çağımız,**
**Otuz ildən sonra güldü növrağımız.**
**Dalğalandı Şuşada al bayrağımız,**
**Qurban olum, hamınıza salam olsun!**

Filologiya elmləri doktoru, professor Aynur Sabitova Mahirə xanımın şeirlərinin "mahnı effekti verdiyini" diqqətə çəkib yazır: **"Nağıqızının şeir texnologiyası, oradakı mövzunun təqdimat forması adət etdiyimiz standart formulada təqdim edilmir və buna görədir ki, bəzən deyilən dəhşətli şeylər kiçik bir mahnı effekti verir. Burada pafos deyil, faciəvi yüngüllük və təvazökarlıq özünü göstərir. Oxucu ona əmin olur ki, müharibə onu əbədi olaraq dəyişdirən dinc kənd həyatının işğalı kimi qəbul edilməlidir. Optika, günəş şüalarında məğlub olmuş bir tankın göründüyü uşaq qavrayışından, qanlı xəyallardan atasına qədər gedib çatan yolda sonsuz yol açan bir yetkinin travmasına keçir. Şeirlə baş-başa qalan insan üçün bu mətn ona görə dəyərlidir ki, burada pafos və tərənnüm ehtiyacından azad, hətta onu inkar etmədən müharibəni yaşamağın əsl nəsil təcrübəsini yaşayır. Bunun üçündür ki, xor susur. Soloda səslənən və bizə yetən mahnıda onun polifoniyası, faciəsi və pafosu belə bir təcrübəni çatdırmaq üçün uyğun deyil, fərqli musiqi, intonasiya, səs lazımdır. Burada ovqatın ümid verən canlılığı, həyatın fəlakət və ya ürəyi yerindən oynadan sevinc olduğu yaddaş və ya təhtəlşüurda yuva salan təsdiqi görünür: orada göz yaşı və qan var, günəş şüaları var, artıq becərilməsi davam edən başqa bir torpaq, buğda dənəsi və bir də həyatın davam etdiyi bir dünya var. Bütün bu baş verənlər içində qulağınıza çatan da yox, qəlbinizi yerindən oynadacaq o səsi eşidəcəksiniz".**




Bu fikirlərə münasibət olaraq onu da qeyd edim ki, "Salam olsun!" şeiri Qələbə paradından gəlib keçən ordumuza müraciət üslubunda yazıldığından, bu şeirin intonasiyasında, səslənişində əsgər marşı - Qələbə marşı sayaq ritmik ahəngin olması da tamamilə təbii haldır. İkincisi burada vurğulanan bir fikir də diqqətimi çox çəkdi ki, "müharibə insanı əbədi olaraq dəyişdirən dinc kənd həyatının işğalı kimi qəbul edilməlidir". Doğrudan da, müharibənin bütün dəhşətlərini yaşamış bir oxucu - insan kimi mən bu fikri öz həyatımda praktiki olaraq yaşamışam. Bəli, bizim də öz doğma, isti ev-eşiyimiz, dağlar qoynunda yerləşən mənzərəli, səfalı kəndimiz vardı. 1993-cü ilin avqustunda kəndimiz qarışıq rayonumuzun və ətraf ərazilərin işğalı bizi əbədi olaraq uşaqlığımızı keçirdiyimiz və gəncliyimizi yaşadığımız kənd həyatından ayırdı. Beləcə, yuxarıda deyildiyi kimi, müharibə bizim üçün həm də "dinc kənd həyatımızın işğalı kimi" psixoloji travmalarla yaddaşımızda özünə ağır, sarsıdıcı yer elədi. Və həm də "müharibə bizi əbədi olaraq dəyişdirdi".

Aynur xanımın dediyi kimi, biz bu şeirin məzmununda "qəlbimizi yerindən oynadacaq səsi eşidirik". Çünki bu duyğular hamımızın qəlbimizi riqqətə gətirən Qələbə paradımızdan duyduğumuz xoş əks-sədalardır. "Ey tarixi sətir-sətir yaradanlar" deyib öydüyü Azərbaycan ordusunun bizim qarşımızda yeni, şanlı həyat səhifələri açdığına rəğmən "Nə şanlısınız, şanınıza salam olsun!" deyən şairənin ədəbi raportuna hamımızın həmrəy olmağımızın sevincidir. Tarixdə əbədi qalacaq, silinməz şöhrətli ad-sanınıza salam olsun deyə hayqıran poetik həyəcanı içimizdə qürurla yaşayır.q.

Daha sonra müzəffər Ali Baş Komandanımızın qətiyyətli sərkərdəliyi ilə bizi heçə sayanların rəzil, yaman günə düşdüyü, Xocalı, Qaradağlı kimi ağır faciələrimizdə qanımızı su yerinə içən faşist xisləti düşmənlərimizin özlərinin nəhayət qanda batdıqları - özləri qazan quyuya özlərinin düşdükləri fikri ifadəsini tapıb. "Bu milləti yıxılmağa qoymayanlar" deyib tərənnüm etdiyi Azərbaycan əsgərinin bu möhtəşəm anına - qələbə anına alqışlar göndərən müəllif növbəti bəndə keçid edir.

"Adı qalar zaman-zaman Sər doğanın" misrası ilə Sər - hamıdan Baş doğulub - var olanın, igid, qəhrəman oğulun həmişə adının tarixdə qalıb yaşayacağı fikri qabardılır.

Bu fikirlərin davamı kimi İlham Əliyevlə Rəcəb Təyyub Ərdoğanın adlarının yanaşı çəkilməsi yuxarıdakı fikirlərin ünvanını



açıqlayır. Bu Qələbədə bizə mənəvi dəstək olan Türkiyənin və onun Cümhurbaşkanının adının ehtiramla çəkilməsi, onlara alqışlar - dualar edilməsi, eyni zamanda Qələbə paradında iştirak etməsi bir daha bizim "İki dövlət, bir millət" oduğumuzun poetik inikasıdır.

Növbəti bənddə şairə M.Nağıqızı bu Qələbənin havayı başa gəlmədiyini, şəhidlərimizin müqəddəs al qanları hesabına qazanıldığını ehtiramla dilə gətirir. Bildirir ki, azadlıq fədailərimiz kimi onların xatirəsi xalqımızın yaddaşında əbədi qalacaqdır.

"Otuz ildən sonra güldü növrağımız" deyən şairə Şuşada dalğalanan üçrəngli bayrağımızla bütün dünyaya Qələbə mesajımızın verildiyini bəyan edir, bu Qələbədə payı olanlara poetik salamlarını çatdırır.

Aynur Sabitova bu şeirin əsas qayəsi ilə bağlı yazır ki, "Bu, şairin ifadə etdiyi həqiqətlərin yaratdığı, ürəyinizi lərzəyə salacaq səsdir. 30 ilin əzab dolu yollarını cəmi 44 günə gedən "tarixi sətir-sətir yaradanlara" ünvanlanan o səsdə qələbənin müəllifləri və icraçılarına qələbənin zinəti olan şəhid-



Şakir Albalıyev,
*AYB-nin və AJB-nin üzvü*

lərimiz və qazilərimizi vəsf edən şeir deyil, həyat manifestinin səsləndiyinin fərqində olacağınıza şübhə etmirik".

Doğrudan da, şeirdə qazilərimizin, şəhidlərimizin vəsfi-tərənnümü ilə yanaşı, "həyat manifestinin" səsini eşidirik:

**Nağıqızı bu torpağın övladı,**
**Nələr çəkdik bu illərdə, çıxmaz dadı.**
**Çatmayıbdır, hələ karvan yollardadı,**
**Mətin gedin, yolunuza salam olsun!**

Şeirin möhürbəndindəki fikirlərdən biz müəllifin hissiyyata romantik formada yox, reallıqla köklləndiyini görürük. Bu ötən illərdə hansı məşəqqətlər çəkdiyimiz unudulan deyil, - deyə xatırlatma verir. Yəni hissiyyata fanatikcəsinə aludəçilik yox, realistcəsinə yanaşma var burada. Ona görə də "Çatmayıbdır, hələ karvan yollardadır" deyib, hələ azadlıq arzusuna doğru gedən karvanımızın mənzil başına çatmadığını bildirir. Çünki 10 noyabr 2020-ci ildəki Qələbə paradımızda düşmən kapitulyasiya aktına qol çəkmişdisə də, hələ Laçın, Kəlbəcər, eləcə də Ağdamın bir hissəsi tam boşaldılmamışdı, Xocalı, Xankəndi hələ düşmən nəzarətində idi. Məhz bu kimi amillərə nəzərən də şairə M.Nağıqızı bu azadlıq yolu ilə "Mətin gedin, yolunuza salam olsun!" - deyə xeyir-duasını verir, alqışını edir.

Gördüyümüz kimi, "Nağıqızı bu torpağın bir övladı" deyən şairə bir vətəndaş olaraq 44 günlük vətən müharibəsinin getdiyi vaxtlarda "Şəhid anasına məktub", "Cəbrayılda qaldırdığın bayrağın" misrasıyla başladığı "Görünür" şeirləri və s. ilə ordumuza qələbə əzmi aşıladığı kimi, Qələbə paradı ilə bağlı bu şeirində də Qələbə sevinci ilə yanaşı bu Qələbə yolunu sonadək uğurlu başa çatdırmağı arzulayır və şairənin bu arzusunu da qəhrəman ordumuz reallaşdırır.